# RADİOTEZLİKLƏR İDARƏETMƏSİNDƏ BEYNƏLXALQ HÜQUQ



Radiotezlik Spektri ilə bağlı işlər bir ərazi ilə məhdudlaşmır, yəni, zərurət yarandığı halda, koordinasiya işlərinin aparılmasına ehtiyac duyulur. Beynəlxalq konfranslarda aiddiyyəti administrasiyalar və BTİ-ni təmsil edən iştirakçılar tərəfindən nəzərdən keçirilən Radiorabitə Reqlamenti BTİ-yə üzv dövlətlər üçün məcburidir. BTİ bu reqlamentdən irəli gələn öhdəliklərin icrasını tənzimləyir. Radio Reqlament Beynəlxalq Telekommunikasiya İttifaqına üzv olan ölkələrin ərazilərində işləyən radio vasitələrin istifadəsi ilə bağlı qaydaları müəyyən edən sənəddir. Radio Reqlament radio diapozonlarda işləyən və elektromaqnit dalğaları şüalandıran avadanlıqların istismarını tənzimləyən qaydalar toplusudur. Bu avadanlıqların hər biri potensial maneə mənbəyi hesab olunur və bu səbəbdən, radio qəbuledici və radio ötürücü avadanlıqların eyni vaxtda müxtəlif ölkələrdə işləməsi üçün həmin avadanlıqların parametrlərinin və işləmə qaydalarının dəqiq müəyyən edilməsinə ehtiyac duyulur. Radio reqlament radio vasitələrin istifadə üzrə təsnifatları, müxtəlif rabitə növləri (radirabitə, radio yayım, televiziya, radionaviqasiya, radiolokasiya və sair) üçün ayrılan radio diapozonun bölüşdürülməsi qaydalarını, habelə radio dalğaları qəbul edən və şüalandıran avadanlıqların parametrlərinin normalarını, müxtəlif regionlarda radio xidmətlərə ayrılan radiotezliklərdən istifadə edilməsi şərtlərini, radiostansiyalar üçün nəzərdə tutulan işçi tezliklərinin müəyyən edilməsi qaydalarını və digər məsələləri əhatə edir.